# BDU COĞRAFİYA FAKÜLTƏSİ KOLLEKTİVİNİN AZƏRBAYCANDA COĞRAFİYA ELMİNİN VƏ TƏHSİLİN İNKİŞAFINDA ROLU

**M.A.MÜSEYİBOV**
*Bakı Dövlət Universiteti*
*müseyibov_museyib@yahoo.com*

*Məqalədə 1944-cü ildən başlamış Bakı Dövlət Universitetinin geologiya-coğrafiya, 1991-ci ildən coğrafiya fakültəsində kadr hazırlığı sahəsində və coğrafiya elminin bütün ixtisasları üzrə elmi-tədqiqat işlərinin inkişafı məsələləri, tez bir zaman kəsiyində Universitet coğrafiyasının keçmiş ittifaqda və xarici ölkələrdə tanınması, kadr hazırlığında əldə edilən uğurlar işıqlandırılır.*

1944-cü ildə təşkil edilmiş BDU geologiya-coğrafiya fakültəsində coğrafiya bölməsi əməkdaşları nəinki elmin müxtəlif sahələrini inkişaf etdirmək, hətta istiqamətin tədris planında olan bir çox kursların tədrisini təmin etmək iqtidarında deyildi. Fakültədə coğrafiya elmləri istiqaməti üzrə bir nəfər də olsa elmi dərəcəsi və adı olan kadr yox idi. Azərbaycanda coğrafiya elmləri namizədi elmi dərəcəsinə hələ 1937-ci ildə layiq görülmüş H.B.Əliyev isə yenicə yaradılmış (1945-ci ildə) coğrafiya institutunun direktoru vəzifəsində çalışırdı. Geodeziya və kartoqrafiya fənlərini prof. M.B.Əliyev, geoloqiya istiqaməti fənlərini prof. Ə.H.Əsgərov, akademik S.F.Mehdiyev, prof.H.X.Əfəndiyev, iqlimşünaslıq fənnini Ə.A.Mədədzadə, hidrologiya fənnini Ş.H.Rüstəmov, torpaqşünaslıq fənnini M.M.Salayev tədris edirdilər.

Keçən əsrin 40-cı illərinin ikinci yarısında fakültənin elmi şurasında (şura üzvləri yalnız geologiya mütəxəsislərindən ibarət idi), coğrafiya istiqaməti üzrə yalnız vahid elmlər namizədi dos. H.B.Əliyev daxil edilmişdi. Həmin elmi şurada Q.K.Gül, N.K.Kərəmov, S.H.Rüstəmov, Ə.M.Hacızadə və bir sıra başqaları, 50-ci illərdə isə universitet məzunlarından M.A.Müseyibov, S.B.Kərimov, M.M.Həsənov, R.X.Piriyev namizədlik dissertasiyaları müdafiə etdilər. Q.K.Gül 1952-ci ildə Moskvada müvəffəqiyyətlə Xəzər dənizinin hidrometrologiyasına dair doktorluq dissertasiyası müdafiə etdi.

Coğrafiya elmləri istiqamətində 60 və 70-ci illər çox məhsuldar oldu. Həmin illərdə ilk dəfə fakültə məzunlarından M.A.Müseyibov, R.X.Piriyev, Ə.M.Hacızadə, F.Ə. Hacıyev doktorluq, O.A.Vahabov, N.A.Vəliyev, M.S.Çobanzadə, R.Mugalov, İ.S.Osmanov, N.A.Babaxanov, M.Ə.Süleymanov, A.Y.İsmayılov, R.V.Seredova və bir çox başqaları namizədlik dissertasiyaları müdafiə etdilər. Fakültədə 1961-ci ildə yeni bir kafedra - SSRİ iqtisadi coğrafiyası kafedrası yaradıldı, 70-ci illərdə isə fiziki coğrafiya kafedrası bazasında daha 3 kafedra (Geodeziya- kartoqrafiya, hidrologiya, ətraf mühiti mühafizə və təbii sərvətlərdən səmərəli istifadə kafedraları) təşkil edildi.

Beləliklə, vaxt etibarı ilə o qədər də uzun olmayan bir dövrdə, 40-cı illərdə yaradılmış vahid coğrafiya kafedrası bazasında 6 sərbəst kafedra fəaliyyət göstərməyə

başladı və Bakı Dövlət Universiteti coğrafiyası keçmiş ittifaqda, hətta ondan kənarda (Çexoslavakiyada, Almaniya Demokratik Respublikasında, Bolqarıstanda və bir sıra Şimali Avropa ölkələrində) tanınmağa başladı, fakültə əməkdaşları isə beynəlxalq konqreslərdə, simpoziumlarda, SSRİ Coğrafiya cəmiyyəti qurultaylarında, Ümumittifaq elmi konfranslarda nəinki maraqlı məruzələrlə çıxış etdməyə başladılar, hətta bir sıra konfransların təşkilatcıları oldular. 1960-cı illərin ikinci yarısından bütün Orta Asiya və Qafqaz regionlarından SSRİ Ali Təhsil Nazirliyinin elmi-metodik şurasına yalnız BDU coğrafiyaçıları (prof. M.A. Müseyibov və prof. Ə.M.Hacızadə) daxil edildilər.

Bütün bu müvəffəqiyyətlər 1991-ci ildə tərkibində 6 kafedra fəaliyyət göstərən coğrafiya fakültəsini yaratmağa imkan verdi.

BDU geologiya-coğrafiya fakültəsi tərkibində coğrafiya ixtisasına tələbə qəbulu aparılması, yeni kafedralar yaradılması, yüksəkixtisaslı kadr hazırlanması Azərbaycanda nisbətən qısa vaxt ərzində bu istiqamətin bütün ixtisasları üzrə gənc kadr hazırlığı problemini həll etməyə, xüsusilə coğrafiya elminin bir sıra mühüm problemlərinə dair keçmiş ittifaqda və ondan çox kənarlarda yüksək qiymətləndirilən elmi ugurlara nail olmağa şərait yaratdı.

BDU coğrafiya fakültəsi kolektivinin fəaliyyətini qiymətləndirmək üçün aşağıda göstərilən qısa məlumata nəzər salaq.

Ali coğrafiya təhsilinin inkişafı əsasən coğrafiya fakültəsi kollektivinin adı ilə bağlıdır. Azərbaycanda hidrologiya, geomorfologiya, yerşünaslıq, iqtisadi və sosial coğrafiya, kartoqrafiya. Azərbaycanın fiziki və iqtisadi coğrafiyası, əhali coğrafiyası, coğrafiya tarixi, meteorologiya və iqlimşünaslıq, ekologiya , biocoğrafiya, torpaq coğrafiyası, landşaftşünaslığın əsasları fənlərinin ilk samballı dərslikləri və dərs vəsaitləri, fən proqramları və proqram topluları, çöl-tədris təcrübəsinin keçirilməsinə dair metodik göstərişlər məhz coğrafiya fakültəsi əməkdaşları tərəfindən yazılıb, nəşr etdirilmişdir. Son 30 ildə göstərilən ixtisaslara dair 100-dən artıq dərslik və dərs vəsaiti, proqram topluları nəşr etdirilmiş, coğrafiya fakültəsi tələbələrinin cöl –tədris və istehsalat təcrübələrini yüksək səviyyədə yerinə yetirmək üçün Xızı rayonunun Altıağac qəsəbəsində cöl-təcrübə bazası yaradılmışdır.

Coğrafiya fakültəsi əməkdaşlarının elmin inkişafında əvəzsis xidmətləri olmuşdur. Bu istiqamətdə ən əhəmiyyətli elmi tədqiqatları hələ XX-ci əsrin 40-cı illərinin axırlarından başlamış 60-cı illərə qədər fiziki coğrafiya kafedrasının müdiri prof. Q.K.Gülün keçmiş ittifaqda yüksək qiymətləndirilmiş Xəzər dənizinin hidrologiyasına, dalğa rejiminə, səviyyə tərəddüdünə dair əsərləri bu unikal dənizin zəngin neft ehtiyatlarının mənimsənilməsində, Xəzər Donanması əməliyyatlarında istifadə edilirdi. O zamanlar fiziki coğrafiya kafedrası əsl Xəzərşünaslıq mərkəzinə cevrilmişdi. Prof. Q.K.Gül ali məktəblərin coğrafiya fakültələri üçün Azərbaycanda ilk dəfə proqram tələbləri səviyyəsində hidrologiya, Azərbaycanın fiziki coğrafiyası (prof.Gülün redaktəsi ilə) dərsliklərinin və bir sıra hazırda öz dəyərini saxlayan monoqrafiyaların müəllifidir.

Azərbaycanda ilk landşaft tədqiqatları da BDU Coğrafiya fakültəsi tərəfindən həyata keçirilmişdir. Prof. N.K.Kərəmov Böyük Qafqazın landşaftlarına dair çoxillik tədqiqatları nəticəcəsində coğrafiya elmləri doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə etdi.

Göstərilənlərlə yanaşı, 50-60-cı illərdə prof.H.B.Əliyevin, Ə.M.Hacızadənin Azərbaycanın iqtisadi və sosial coğrafiyasına dair dərslikləri və monoqrafik tədqi-

qatları meydana gəldi. Bunlara ali məktəblərin coğrafiya fakültələri üçün «Azərbaycanın iqtisadi coğrafiyası» (H.B.Əliyev), Azərbaycan regionlarının iqtisadi coğrafiyası (Kəlbəcər-Lacın iqtiasdi rayonu timsalında), Azərbaycan sənaye kompleksi (Ə.M.Hacızadə). Azərbaycanın əhalisinə dair tədqiqatlar (Ş.Y.Göyçaylı) və s. parlaq misaldır.

XX əsrin 50-60-cı illərində fakültə əməkdaşları o zamanlar hələ cox zəif inkişaf etmiş regional geomorfoloji və neotektonik hərəkətlərə dair tədqiqatlara qoşuldular və tez bir zamanda bu öz bəhrəsini verməyə başladı. Həmin tədqiqatlar nəticəsində Azərbaycanın depresiya və dağlıq regionlarının morfostrukturu və yeni tektonik hərəkətlərinə dair keçmiş ittifaqda yüksək qiymətləndirən tədqiqat işləri yerinə yetirildi (bu problemlərin dağlıq ərazilərə aid mövzuları əsasən coğrafiya və geologiya institutları əməkdaşları tərəfindən yerinə yetirilmişdir).

Keçən əsrin 60-cı illərindən başlamış geologiya-coğrafiya fakültəsinin elmi potensialını nəzərə alan bir sıra təşkilatlar və nazirliklər fakültəyə elmi iş sifariş etməyə başladılar. Belə təşkilatlardan Azərbaycan Su Təsərrüfat Nazirliyini, Azərbaycan Geologiya İdarəsini, Azərbaycan Dövlət Plan Komitəsini, SSRİ Müdafiə Nazirliyini və s. göstərmək olar. Həmin təşkilatların sifarişi ilə «Filizçay zonası mədənlərinin istismarı» ilə əlaqədar Azərbaycanın şimal-qərb bölgəsinin (Balakən-Zaqatala zonasının) iqtisadi inkişafına dair mühüm tədqiqatar (rəhbər prof. Ə.M.Hacızadə) yerinə yetirildi, Lənkəran, Mil-Qarabağ, Xunam (Gəncə-Qazax), Naxcıvan. Qanıx-Əyriçay düzənliklərinin meliorasiya məqsədləri üçün irimiqyaslı geomorfoloji və landşaft xəritələri tərtib edildi (rəhbər prof. M.A.Müseyibov). Göstərilənlərlə yanaşı 60-cı illərin sonu və 70-ci illərdə fakültənin bir sıra əməkdaşları Qafqazın geomorfoloji xəritəsinin və ikicildlik monoqrafiyanın (bunların yerinə yetirilməsində SSRİ EA Coğrafiya İnstitutunun, MDU-geologiya fakültəsinin, AEA coğrafiya institutunun və bir çox başqa elmi-tədqiqat institutlarının əməkdaşları iştirak etmişlər) nəşr edilməsi, SSRİ-nin əhali xəritəsinin (Azərbaycan həmmüəllif prof. Ş.Y.Göyçaylı), SSRİ-nin cənubunun neotektonik hərəkətlər xəritəsinin tərtibinə cəlb edildilər. Göstərilənlər Azərbaycan və BDU Coğrafiyaçılarının böyük müvəffəqiyyəti idi.

Göstərilən faktlar Azərbaycan, eləcə də BDU coğrafiyaçılarının ittifaq, miqyasında böyük nailiyyətlərini sübut edir.

Azərbaycanın müstəqillik əldə etməsi təhsil sisteminin, xüsusilə orta təhsilin yenidən qurulmasını tələb edirdi. BDU, AEA Coğrafiya institutu əməkdaşlarının bir qrupu bu məsul işə cəlb edildi. Həmin qrup ümumtəhsil məktəblərinin X və XI-ci siniflərində coğrafiya fənninin tədrisinin tədris planına daxil edilməsinə nail oldu və tezliklə X-cu sinifdə Yerşünaslıq və XI-ci sinifdə Türk Dünyasının coğrafiyası tədris edilməyə başladı, onların dərslikləri yazılıb nəşr edildi. Bununla yanaşı V,VI,VII,VIII və IX siniflərin dərslikləri də yeni plan-proqram əsasında yazılıb, nəşr edildi.

Coğrafiya fakültəsi kadr hazırlığının və elmi işlərin strukturuna görə universitetin mürəkkəb tərkibli fakültələrindəndir. Son 35 ilə yaxın bir dövrdə fakültədə coğrafiya, hidrometerologiya, geodeziya və kartoqrafiya, ətraf mühitin mühafizəsi (coğrafi ekologiya) istiqamətləri üzrə gənc kadr hazırlığı həyata keçirilir. Axırıncı 10-ildə göstərilənlərə yeni bir istiqamət – turizm və sosial mədəni servis istiqaməti əlavə olundu. Sərbəst tədris planları ilə işləyən həmin istiqamətlərin özləri belə mürəkkəb tərkiblidir. Hidrometeorologiya istiqaməti üzrə kadr hazırlığı 3 ixtisası: hidrologiya, meteorologiya və iqlimşünaslıq və okeanologiya ixtisaslarını, coğrafiya ixtisası: fiziki coğrafiya, iqtisadi və sosial coğrafiya, landşaftşünaslıq,

geomorfologiya, urbanizasiya və s. ixtisasları əhatə edir. Magistratura pilləsində isə 15 ixtisasa dair proqram topluları hazırlamaq tələb olunurdu. Fakültənin professor-müəllim heyəti çox istiqamətli və çoxixtisaslı geniş təhsil sahəsini tədrisin bütün tələblərinə uyğun təmin etmişdir.

Fakültənin yaradıcı kollektivi, universitetin başqa fakültələrində olduğu kimi təhsilin Bolonya sisteminə keçməsi ilə əlaqədar təhsil standartlarını, tədris planlarını bu sistemin tələblərinə uyğun yenidən işləmiş və hazırda yeni fən proqramlarının tərtibi üzərində çalışır.

Coğrafiya fakültəsinin kollektivi son illər coğrafiya elminin və onun ayrı-ayrı istiqamət və ixtisaslarının müasir problemləri üzərində çalışır. Bu problemlərə, ilk növbədə bəşəriyyətin sürətlə artması (hər 12-14 ildə Yer kürəsi əhalisinin 1 milyard nəfər artır) və planetin artmaqda olan əhalini insan həyatı üçün zəruri məhsullar və materiallarla təmin etmək imkanlarının azalması, bu prosesin Azərbaycana təsiri məsələləri, landşaftın və onun bütün komponentlərinin antropogen transformasiyası, ekoloji gərginlik daxildir. Həmin problemin konkret mövzuları Azərbaycanın su problemi, transsərhəd çayların tədqiqatı, su ehtiyatları, ekologiyası, iqlimin tərəddüdü məsələləri Dünyanın qabaqcıl ölkələri və bir sıra beynəlxalq təşkilatların marağı dairəsində olan mühüm mövzulardır. Su ehtiyatı tələbatdan az olan Azərbaycan Respublikası üçün bu problemin işlənməsi olduqca böyük əhəmiyyət kəsb edir. Fakültənin hidrometerologiya kafedrası əməkdaşları prof. F.Ə.İmanovun rəhbərliyi və bilavasitə iştirakı ilə son 5 ildə bu mühüm və mürəkkəb problem üzərində (Beynəlxalq proqram üzrə) Cənubi Qafqaz Respublikaları və Azərbaycanın Ekologiya Nazirliyinin aidiyyətli strukturları ilə müştərək çalışırlar.

Fakültə əməkdaşlarının bir qrupu müasir dövr üçün ən mühüm problemlərdən sayılan urbanizasiya problemi üzərində çalışır.Bu istiqamətdə aparılan tədqiqatların ilkin nəticələri artıq Azərbaycanda, hətta xarici ölkələrdə nəşr edilmiş monoqrafiyalarda işıqlandırılmışdır (prof. V.Ə.Əfəndiyev və b.).

Coğrafiya fakültəsində son onillikdə diqqəti cəlb edən qlobal elmi istiqamətlərdən biri turizmin inkişafı və onun kadr təminatı, infrastrukturun, turizm təsərrüfatının bir sıra mühüm məsələlərinin araşdırılmasıdır.

Coğrafiya fakültəsinin Turizm və sosial mədəni servis kafedrası Azərbaycan Respublikasında bu sahənin kadr təminatı üzərində çalışan yeganə kollektiv idi (kafedra; müdüri dos. H.B.Soltanova).

Bu kollektiv qısa vaxt ərzində yeni istiqamətin tədris planı, proqram və dərsliklərlə təmin edilməsində fədakar çalışmışdır. Son zamanlar kafedranın kollektivi Azərbaycanda turizm industriyasının inkişafı, Azərbaycanı Dünya turizm mərkəzlərindən birinə çevirmək problemləri, bu industriyanın bir sıra mühüm aspektləri, xüsusilə Azərbaycanın zəngin arxeoloji, tarixi, mədəni abidələrinin, olduqca rəngarəng Azərbaycan təbiətinin bu industriyanın inkişafına yararlılıq dərəcəsini müəyyənləşdirmək üzərində çalışır. Tələbə və magistrantların sahənin Azərbaycanda və xarici ölkələrdə (Türkiyə, Şimali Kipr Respublikasında ) yerləşən obyektlərində çalışmasını və ixtisaslarının artmasını təmin edirlər. Turizm və sosial-mədəni servis kafedrası turizm sahəsində yeni yaradılan təhsil müəssisələrinin proqramı, tədris planı, hətta bəzi dərsliklərlə təmin edilməsində fəal iştirak edir.

Müasir Dünyanın ən mühüm problemi ekologiya-ətraf mühitin mühafizəsi və sağlamlaşdırılması problemidir. Coğrafiya fakültəsində 30 ilə yaxın bir dövrdə fəaliyyət göstərən ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə

kafedrası əməkdaşlarının (kafedra müdiri prof. Ş.Y.Göyçaylı) bu sahədə gənc kadr hazırlığı ilə yanaşı, ekologiyanın bir sıra qlobal və regional problemlərinə dair ciddi elmi araşdırmalar həyata keçirir. Bunlara ilk növbədə planetar ekocoğrafi problemlər, Azərbaycan Respublikası və ümumiyyətlə, Qafqaz regionunun konkret ekoloji, landşaft - ekoloji məsələləri (Azərbaycan regionlarının tarazlı inkişafının ekoloji problemləri) üzərində müvəffəqiyyətlə çalışmaqla, Azərbaycanda ilk dəfə istiqaməti tədris planları, proqram topluları, dərslik və dərs vəsaitləri ilə təmin edilməsində əvəzsiz xidmətləri olmuşdur.

İqtisadi və sosial coğrafiya kafedrası əməkdaşları keçmiş ittifaqın və Azərbaycanın, Xəzərətrafı regionların iqtisadi coğrafi problemləri, ekstremal təbii proseslərin iqtisadi-coğrafi duruma təsiri məsələlərinə dair tədqiqatlar aparmış və yaxşı nəticələr əldə etmişlər. Bu nəticələrə, yuxarıda qeyd edildiyi kimi, Azərbaycanın və regionların iqtisadi durumu tarazlı inkişafın perspektivləri (sənayenin, xüsusilə neft-qaz hasilatı və nəqliyyatının, kənd təsərrüfatının) daxildir.

Geodeziya və kartoqrafiya kafedrası əməkdaşları son dövrdə təbii komplekslərin və onların komponentlərinin aerokosmik və CİS texnologiyaları ilə tədqiqat üzərində çalışırlar.

Fiziki coğrafiya kafedrasının elmi-tədqiqat işləri sırasında Azərbaycanın təbii və təbii–antropogen landşaftlarının tədqiqi, neotektonik hərəkətlər, morfostruktur və morfokulpturların genezisinin, inkişafının qanunauyğunluqlarının araşdırılması, təsnifatı, evolyasiyası problemləri tədqiqatın əsas istiqamətləri olmuşdur. Bu tədqiqatlar nəticəsində keçmiş ittifaqda analoqu olmayan Gürcüstanın landşaft xəritəsini çıxmaqla) Azərbaycanın orta miqyaslı landşaft xəritəsi (Tbilisi, 1975), geomorfoloji xəritə (1994) tərtib edilmiş və nəşr olunmuşdur. Kafedra, həmçinin Azərbaycanın ortamiqyaslı neotektonik hərəkətlər (AEA geologiya, coğrafiya institututları ilə müştərək) xəritəsinin tərtib edilməsində iştirak etmişdir. Azərbaycan ərazisi landşaftlarının evolyusiyası məsələləri də ilk dəfə kafedrada işlənmiş və son 10 milyon ildə tropik savanna landşaftlarının subtropik düzənliklərin yarımsəhra, quruçöl, dağlıq ərazilərin dağ-meşə, dağ-çöl, dağ-çəmən landşaftlarına transformasiyası prosesləri müəyyən edilmişdir.

Kafedra əməkdaşları hazırda Azərbaycan ərazisinin kosmik metodlarla tədqiqi işinə başlamış və 2009-2011-ci illərdə respublika ərazisinin orta miqyaslı kosmogeomorfoloji və kosmolandşaft xəritələrinin tərtibi planlaşdırılmışdır. Son illərdə kafedra əməkdaşları, həmçinin Azərbaycan ərazisi landşaftlarının antropogen transformasiyasına dair tədqiqatları başa çatdırmış və orta miqyaslı landşaftların antropogen transformasiyası xəritəsi tərtib edilmişdir (dos. Y.Ə.Qəribov).

Kafedra əməkdaşları, həmçinin Azərbaycanın ekogeomorfoloji şəraitinin tədqiqi ilə məşğul olmuş (dos. R.Y.Quliyev və b.) və respublika ərazisinin ekogeomorfoloji xəritəsini tərtib etmişlər.

Coğrafiya fakültəsi əməkdaşları Azərbaycan təhsilinin flaqmanı olan Bakı Dövlət Universitetinin 90 illik yubileyi ərəfəsində təhsilin, elmin inkişafına dair fəaliyyətlərini daha da artırmaqla, elmin prioritet istiqamətlərinə aid tədqiqatlarını genişləndirmək və dərinləşdirmək yolunda yorulmadan çalışır.

# РОЛЬ КОЛЛЕКТИВА ГЕОГРАФИЧЕСКОГО ФАКУЛЬТЕТА БГУ В РАЗВИТИИ ГЕОГРАФИЧЕСКОГО ОБРАЗОВАНИЯ И НАУКИ

**М.А.МУСЕИБОВ**

## РЕЗЮМЕ

В статье рассматриваются организация географического образования и подготовка высококвалифицированных молодых кадров, кандидатов и докторов наук во всех областях географии. Коротко освещаются и роль сотрудников факультета в развитии геоморфологических, ландшафтных, экономикогеографических, гидрологических, экологических, картографических исследований.

Особое внимание в статье уделены успехам сотрудников факультета в развитии современных приоритетных направлений географии, гидрометрологии, геоэкологии, индустрии туризма, урбанизации и пр.

# THE ROLE OF THE STAFF OF GEOGRAPHY DEPARTMENT OF BAKU STATE UNIVERSITY IN THE DEVELOPMENT OF GEOGRAPHICAL EDUCATION AND SCIENCE

**M.A.MUSEYIBOV**

## SUMMARY

The presented article analyzes the organization of Geographical education and development of highly skilled young specialists, graduate and post graduate students in all fields of Geography. The author elucidates the role of the faculty members in the development of researches in the following fields: Geomorphology, Landscape Science, Hydrology, Ecology, and Cartography.

The main attention was paid to the achievements of faculty members in the researches of such priority fields of Geography as Hydrometeorology, Ecology, Tourism and Urbanization.